Sengiməyir bir hovur.
Burda boş sözlər ilə
Yola getmir bu dünya:
Nə bir ümid kölgəsi,
Nə dua, nə də röya...
Əzabdan qaçmaq olmur -
Öyrəşməkdən savayı
Heç kimə heç nə qalmır...
Onu tapmaqdan ötrü
Axtaranlar çox əlləşib -
Əbədiyyət olan yerdə
dəniz günəşlə birləşib!

*May 1872*

## Qızıl dövr

Şükutda eşidilir
Mələk misallı bir səs...
Söhbət məndən gedirsə,
Nədən ciddiləşdi bəs?
Gör nə qədər çaşqınlıq,
Gör nə qədər sual var.
Adamın ağlını alır
Sərxoş eləyir onlar.
İndi bu sevinc, bu nur
qülləsini qalxanı:
gördüyün bax bu yazı,
təmtəraqlar dünyası
sənin kimi insanın
bil ki ailəsidir.
Və ilaxır, və sair...
Sükutda eşdilir
Mələk misallı bir səs...
Söhbət məndən gedirsə,
Nədən ciddiləşdi bəs.
Sonra gözəl nəğməsi
eşidildi qəfildən.
Səsdə alman ahəngi
bir ehtiras duydum mən.
Dünya günah içində -
Qəribə deyil ki, bu.
Yaşa! Dərdin, aləmin,
qoy uzaq olsun yolu.
Aman... bu gözəl qəsr!
Ah, gözəl işıq seli.
Sənin ömrünün necə
Müqəddəsmiş hər ili!
Gör hansı zamandayıq,
Gör işıq hardan yağır.
Qardaş - uca, hökmlü...
Və sair və ilaxır...
Sən ey əzəmətli xor,
Mən də nəğmə deyirəm!
Yalvarıram, qardaşlar,
Görün nə istəyirəm:
Siz mənim həyatımı
Şərəfə bürüyün bir,
bürüyün şan-şöhrətə,
və ilaxır və sair...

*İyun 1872*

## Gənc cütlük

Yaşıla, maviyə çalır pəncərə,
Hər yanda mücrü var, sandıqçalar var.
Sarmaşıq divara elə dırmaşıb,
Sanki gülümsəyir eşikdə divar.

Nədir bu çaxnaşma, bu israfçılıq?
Ruhlar kabuslarla oyunmu qurub?
Afrika mənşəli bir pəri gəlir,
Hər küncdə, bucaqda bərkidir toru.

Gəlir... Narazıdır o doğma kəs də,
Burda daldalanır - bufetdə qalır...
Cütlük yoxdu burda, nə olsun amma
Dəyişməsin gərək bundan əhvalı.

Aralı düşəndə sevgilisindən,
Burda küləklər də çaşdırır onu.
Çeşmənin başında su pəriləri
Oynayır... Oyunun görünmür sonu.

Ah, gecə gəlincə başlar bal ayı,
Bal tək üzlərindən yağar təbəssüm.
Süzülər, eləcə bürüyər göyü,
Siçovul da bilməz, nə təhər dözsün...

Sükutda açılan bir güllə kimi
Qəfil yaxalayar bu işıq səni.
Sən ey Vifleyemin bəyaz kabusu,
Qoru pəncərənin maviliyini!

*27 iyun 1872*

## Brüssel

*İyul, Regent bulvarı*

Uzanır Yupiter sarayınacan
Amarant kolları cərgələnərək...
Bilirəm, səhranın lacivərdinə
Qatırsan bu yerdə min çalar, min rəng.

Bir güldü şamlıqda qürub günəşi,
Yalqız quşlar üçün ora qəfəsdi.
Gör necə oxuyub cəh-cəh vururlar,
Bu, gözəl aramgah, bu, gözəl səsdi...

Köhnə ehtiraslar, kimsəsiz evlər!
Sevgi divanəsi qızı andırır.
Bu onun köşküdür...
Bu toran eyvan
həm də ki, bu güllük - Cülyettanındır.

Yaddaşım oyadır Henriyetanı,
Dağlar qoynundakı o kiçik yeri.
Göylükdə oynaşan o şeytanları
Geniş üfüqlərə yüyürənləri.

Gitarası əldə, sözü dodaqda,
yaşıl skamyada bir irland qızı,
özünün şimşəkli cənnəti haqda
nəğməsiylə birgə ruhlara sızır...

Sonra... Yeməkxana... Uşaqlar... Hay-küy...
Sübh çağı qəfəsdə cikkilti səsi...
Bu isə hersoqun pəncərəsidi,
Qalıb ilbizlərin şüşədə izi.

Görürəm günəşin nur sellərinə
Baş qoyub dörd yanda şümşadlar yatıb.
Sonra da...
Gözəldi hər yan! Gəl susaq.
Kimsə yox - bulvar da sükuta batıb.

Susub komediya, hətta dram da,
Gözüm keçənlərin qalıb üzündə.
Başqa səhnələrdi burda gördüyüm,
Mən sənə heyranam sükut içində.

## Komediya yanğısı

*1. Əcdadlar*

Hə, biz sənin əcdadınıq!
Bir bax,
igidliyimizlə necə dolub
turş şərabın şüşələri.
Şüşələrin yaşılında
Ayın buz kimi təri.
Günün altındakı insan
Nə istər?
İçib çıxış yolu tapmaq.
O vəhşi çayların sahillərində
Kaş başımı qoyaydım...
Bax,
Biz sənin əcdadınıq,
Hə, elədir!
Su
ağaclara, kollara yığılıbdır;
bir bax: qəsrin altına,
qalanın dövrəsinə, yarğanlara dolubdur
Əvvəlcə sən
yanımıza, qazmaya en,
südü sonra içərsən.
Mən
sürülərin içdiyi yerə gedirəm!
Hə, biz sənin əcdadınıq!
Götür dolablardakı
Cövhərin dadına bax,
Çayımız da hazırdır,
Qəhvəmizə ol qonaq.
- Məzarlıqdan gəlirik
Çiçək çələngləriylə.
Urnaların içini
kaş, quruda biləydim -
sevgiylə!

*2. Ruh*

Sən ey ölməz Su Pərisi,
Dərinliyi ölç suda.
Dalğalara süvar olub
Şahə qalx, Afrodita.
Ey Norveçin Aqasferi,
Mənə qardan danış sən.
Ey ən qədim qaçqın, oxu,
okean nəğməsindən.
Oxu, mən də əl götürüm,
ətirli içkilərdən.
Stəkandakı güllər də
Gərək deyil heç mənə...
Əfsanə söyləməklə
Azalan deyil təşnə...
Kaş duyaydın susuzluğun
Gətirdiyi ağrıları.
O dəhşətli Hidranın
Sən deyilsən nəğməkarı.

*3. Dostlar*

Dəli şərab dalğaları
çırpılan sahilə gedək!
Uca dağlardan aşağı
dolu qədəhləri görək!
Ey zəvvarlar, tezcə gəlin,
Yaşıl absent sizi gözlər...
Mənzərələr mənlik deyil,
Həzz nədir bilmirik bizlər...
Yox! Amma çox istərdim,
bu göldə kötüklərin
batdığı yerə enim.
Sonra da köpüklərin
altında yavaş-yavaş,
faniliklər dünyasına
qovuşa biləydim kaş...

*4. Miskin arzu*

Bəlkə də hardasa qədim bir şəhər
Gözləyir yolumu dan sökülüncə.
Çatacam oraya, oturub səssiz
Baxıb ölümümə şərab içəcəm.
Ağrımı yumşalda bilərdimmi heç
Görəsən, bir azca olsaydı pulum?
Görəsən şimala üz tutub, yoxsa
Cənub diyarlara aparır yolum?
Qətiyyən! Bu necə miskin arzudu!
Artır itkilərim... Beləysə, əgər,
Qoy mən usanmadan səyyah tək qalım.
Məni çağırmasın qoy meyxanələr.

*5. Sonuncu*

Çöllərdə titrəşən ağ göyərçinlər,
Zülmətdə yol azan nə ki canlı var;
Piyada, ağılda olanlar belə,
Hətta böcəklər də içmək arzular.
Buludlarla dolu göyün üzündə
Qopub da bu ruhdan, əriyib getmək...
Fərq etməz - meşədə, ya çəmənlikdə
şehli bənövşələr içində itmək...

*May 1872*

*Tərcümə edən:*
**Zahid SARITORPAQ**

**Ədəbiyyat qəzeti.- 2017.- 4 mart.- S. 6-7.**